*Balayev Alı Məhəmməd oğlu,*
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu,*
*Email: ali.balayev.66@mail.ru*

# QARABAĞDA İŞĞAL DÖVRÜNDƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN VƏZİYYƏTİ

1988-ci il fevral hadisələrindən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin separatçı-terrorçuları, Ermənistan silahlı qüvvələri və SSRİ Silahlı Qüvvələrinin Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşən hissələri Dağlıq Qarabağı işğal et-

dılər. Onlar dinc və silahsız əhalini kütləvi şəkildə məhv etdilər, dəhşətli soyqırım törətdilər.

“Ermənilər işğal etdikləri torpaqları "viran qoymaq" taktikasına əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdu. Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi” [4].

Təkcə Azərbaycanda və Qafqazda deyil, bütün keçmiş sovet məkanında kompleks halda tarixi-arxeoloji tədqiqata cəlb olunan nadir bölgələrdən olan Qarabağın tarixi-mədəni abidələri haqqında çox sayda kitablar, elmi məqalələr, fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyaları yazılmışdır.

Qarabağda, əsasən, XIX əsrin ikinci yarısından başlamış, XX əsrin 20-30-cu illərində fasilələrlə davam etdirilmiş, XX əsrin ikinci yarısı – XXI əsrin əvvəllərində isə intensiv xarakter almış arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, bu bölgədə Paleolit-Mezolit, Neolit-Eneolit, Kür-Araz, Üzərliktəpə və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətləri, Azıx, Tağlar, Şuşa, Zar kimi Paleolit (qədim daş dövrü) mağara düşərgələri də Qarabağda yerləşmişdir.

Erməni vandalları işğal etdikləri Qarabağda tarixi-mədəniyyət abidələrini məhv etmiş, dağıtmış və erməniləşdirmişlər. 30 il müddətində qədim tarixə malik, unikal və bənzərsiz tarixi-arxeoloji memarlıq abidələri erməni vandallarının tapdağı altında qalmışdır.

“Zəngin maddi-mədəniyyət abidələri vəhşicəsinə dağıdılmış, müxtəlif dövrlərə aid arxeoloji abidələrin milli mənsubiyyəti danılaraq erməniləşdirilmişdir. Azıx Paleolit düşərgəsində, Şuşa ətrafında, Xankəndi yaxınlığında, Qarabağın digər abidələrində, Şahbulaqda, Ağdam kurqanlarında qanunsuz arxeoloji qazıntılar aparılmış, artefaktlar Yerevana daşınmışdır. Qafqaz Albaniyasına məxsus xristian məbədlərinin guya ermənilərə məxsusluğu heç bir elmi tarixi əsası olmadan dünya ictimaiyyətinə təlqin olunmağa çalışılmışdır” [6, 58-59].

İşğal altında qalmış Qarabağ və ətraf ərazilərin mədəniyyət abidələrinin və memarlıq irsinin vəziyyətini müqayisə etdikdə dəhşətli mənzərə yaranır:

“1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınmışdı. Yüzlərlə mədəniyyət müəssisəsi, 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evləri, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarası, Şuşa Dövlət Tarix - Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilmişdir” [12, 61].

Birinci Qarabağ Müharibəsindən (1988-1994) əvvəl Azərbaycanın Qarabağ bölgəsində “706 tarixi və mədəniyyət abidələri mövcud olub və onlardan 11-i beynəlxalq (6-sı memarlıq, 5-i arxeoloji) , 240-ı dövlət (119-u memarlıq, 121-i arxeoloji), və 455-i yerli (393-ü memarlıq, 22-si arxeoloji, 23 park və xatirə abidələri və 17 dekorativ sənət işləri) əhəmiyyət daşıyıb” [11]. Dağlıq Qarabağın, ona bitişik rayonların, o cümlədən Ermənistanla sərhəddə yerləşən Qazaxın 7 kəndinin və Naxçıvanın Kərki kəndinin Ermənistan tərəfindən işğalı nəticəsində “100 mindən çox artefaktın saxlanıldığı

22 muzey, 4,6 milyon kitabdan ibarət 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət məkanı məhv edilib [10, 97]. Bu yaxınlarda aparılmış hesablamalara əsasən İkinci Qarabağ Müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə 400-ə yaxın abidə dağıdılıb” [2].

Bir sözlə, işğal olunmuş Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan mədəniyyət obyektləri, maarif müəssisələri xüsusi qəddarlıqla məhv edilmişdir. “Ermənilərin tapdağı altında olan ərazilərdə 12 muzey, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilmiş və yandırılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuşdur. Dağıdılan və yandırılan 927 kitabxanada 4.6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir” [10, 94]. Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda Azərbaycanın milli mədəniyyət ocaqlarına erməni təcavüzkarlarının vurduqları ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. “Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə yanaşı, ilkin hesablamalara görə, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard ABŞ dollarından çox ziyan dəymişdir” [10, 94].

Qarabağda azərbaycanlılara məxsus mədəniyyət abidələrinin talan edilməsi və mənimsənilməsi təkcə 30 illik işğal dövründə deyil, İkinci Qarabağ Müharibəsi və ondan sonra da həyata keçirilib. 2021-ci il fevralın 15-də Yerevandakı Aleksandr Tamanyan adına Milli Memarlıq Muzey-İnstitutunda 2020-ci il noyabrın 1-də Şuşa Xalça Muzeyindən qanunsuz olaraq çıxarılmış xalçalardan ibarət sərgi açılıb [1]. Ümumilikdə, muzeydən “160 xalça oğurlanıb, lakin onlardan 71-i sərgidə nümayiş olunub. Oğurlanmış ən qədim xalçanın 350 yaşı var” [7].

Azərbaycana məxsus abidələrin məhv edilməsi və saxtalaşdırılması Ermənistanın işğalı möhkəmləndirmək siyasətinin tərkib hissəsi olub. Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının açıqlamasına əsasən “Qarabağ regionunda Azərbaycana məxsus 403 ədəd tarixi və dini abidə (67 məscid, 144 kilsə, 192 ziyarətgah və 900-dən çox qəbiristanlıq) mövcud olub” [5]. Bütün bunlar Qarabağ bölgəsinin Azərbaycana məxsus olduğunu sübut etdiyi üçün Ermənistan onları məhv etməyə çalışmışdır. İndiki Ermənistan ərazisində yerləşən Azərbaycan mədəniyyət abidələri də məhv edilmişdir. “Bir çox hallarda Azərbaycan irsinə məxsus abidələr məhv edilib, abidəni sökmək mümkün olmadıqda isə divarlarına erməni yazıları quraşdırılıb” [8, 16].

Ermənistan Azərbaycana qarşı hərbi təcavüzünün mahiyyətini bilərəkdən müsəlman-xristian düşmənçiliyi kimi təqdim edib. Bu yanaşma həm Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında, həm də Ermənistanın öz ərazisindəki dini abidələr münasibətində özünü göstərdi. “Azərbaycanın Milli Elmlər Akademiyası bu yaxınlarda Qarabağ bölgəsində yerləşən 67 dini abidədən 63-nün məhv edildiyini və digər 4-nün 30 illik işğal müddətində ciddi zədə aldığını açıqlayıb. Bu abidələrdən əksəriyyəti Şuşa, Zəngilan və Füzuli rayonlarında yerləşir” [3].

Ermənistanın 30 il müddətində Azərbaycana məxsus islam abidələrinə qarşı apardığı siyasət 3 formada təsnifatlandırılır: “tamamilə məhvetmə, təhqir etmə və başqa bir mədəniyyətə aid etməklə mədəni silinmə (daha dəqiq desək, “Farslaşdırma”). Sonuncu

məsələ ilə bağlı bu bölmənin sonunda geniş bəhs olunacaq. Böyük məscidlər tamamilə dağıdılmasa da, orada dua etməyə icazə verilməyib. Kiçik məscidlər və digər mədəniyyət abidələri isə ya məhv edilib, ya təhqir edilib, ya da baxımsız vəziyyətə salınıb. İlkin qiymətləndirmələrə əsasən təkcə Şuşada 11 məscid məhv edilib. Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində XIX əsrdə 17 məscid olub" [8, 18]. Erməni vandalları Şuşadakı dini abidələri, o cümlədən XIX əsrə aid Yuxarı və Aşağı Gövhərağa məscidlərini mədrəsələri ilə birlikdə dağıdıb, yandırıb və qarət ediblər.

Təxminən, 30 il ərzində Ermənistan hərbi təcavüz nəticəsində Qarabağdakı separatçı-terrorçu ermənilərlə birlikdə Azərbaycan ərazilərini işğal etmiş, tarixi və mədəniyyət abidələrini təkcə mənimsəməmiş, Azərbaycan mədəni irsinin məhv edilməsi yönümündə davamlı və məqsədyönlü siyasət həyata keçirmişdir. Erməni vandalları Azərbaycan mədəniyyət abidələrinə bərpa olunmaz zərər vurublar.

Qarabağda salamat qalmış nadir məscidlər (o cümlədən Şuşa məscidi) "fars məscidi" kimi təqdim edilmiş və ya mənimsənilmiş, Qarabağ ərazisində azərbaycanlıların izinin itirilməsi siyasəti aparılmışdır. Davam edən vandalizm Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv etdi. XX əsrin ən böyük faciəsini- Xocalı faciəsini törətdilər erməni və rus hərbi birləşmələri Xocalı əhalisini soyqırıma məruz qoydular. Ulu əcdadlarımızın tarixi yaddaş rəmzi olan məşhur Xocalı qəbiristanlığını texnika vasitəsilə darmadağın etdilər. Mənfurlar Xocalıda və Şuşada bu vandalizmi ifrat dərəcəyə çatdırdılar. Məşhur Xocalı-Gədəbəy mədəniyyətinin qədim beşiyi olan Xocalı kurqanlarını yer üzündən sildilər. Şuşa muzeylərini dağıtdılar.

Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası ermənilərin hərbi sursat anbarına çevrildi. İslam abidələri dağıdılıb yer üzərindən silindi. Alban xristian abidələri isə tamamilə saxtalaşdırıldı. Xalqımızın tarixi yadigarı olan Yelisey məbədi, Həsənriz məbədi və digər abidələrdə alban yazıları silindi. Həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdıldı. Yelisey məbədində saxlanılmış Alban hökmdarı III Vaçaqanın qəbri və sövməsindəki yazı tamamilə məhv edildi" [9].

Beləliklə, 30 ilə yaxın müddət ərzində Ermənistan beynəlxalq hüquq normalarına riayət etməmiş, insanlığa qarşı ağir cinayətlər törədərək Qarabağ və ətraf ərazilərdə mədəni, tarixi və dini memarlıq irsini yerlə yeksan edibdir. Mədəniyyət abidələrindən artefaktlar oğurlanmış, abidələr "erməniləşdirilmiş" və saxtalaşdırmaq məqsədi ilə "bərpa işləri" aparılmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. AzeMedia (2021). "Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı zamanı artefaktların təhqir və talan edilməsinə dair yeni hesabat hazırlanıb" . https://aze.media/desecration-and-looting-of-historic-artefacts-during-armenian-occupation-of-nagorno-karabakh-highlighted-in-new-report/ (Daxil olunub: 28 aprel 2021).

2. "Azərbaycan Milli Elmlər Akademiyası (2020), "Könlüm keçir Qarabağdan…" // http://www.science.gov.az/news/open/14939 (Daxil olunub: 26 aprel 2021).

3. 27-03-2022. Azərbaycana qarşı elan olunmamış müharibə//supremecourt. ngov.az/static/view/168

4. Azərtac (2020), "Azərbaycanın tarixi və dini abidələrinə qarşı erməni vanda-

lizmi”//https://azertag.az/en/xeber/Armenian_vandalism_against_historical_and_ religi ous_monuments_of_Azerbaijan-1608221 (Daxil olunub: 2 may 2021).

5. Cəfərəv H. Qarabağ Azərbaycanın qədim etnik-tarixi mədəniyyət beşiyidir // Qarabağ Azərbaycandır. UNEC Ekspert, №2(09)2020, №1(10) mart 2021, s.56-59.

6. Civilnet (2021), “Şuşa xalçaları: Yerevandakı xəzinə”//https://www.youtube. com/ watch?v=-TRK0hVe1iQ1:50 (Daxil olunub: 2 may).

7. Ermənistanın azərbaycanlılara məxsus mədəni və tarixi irsi mənimsəməsi. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Hesabatı. Hesabatın bir qismi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təqdim olunan mənbələrə əsasən hazırlanıb. Bakı: 2021, 40 s.

9. Hacıyev Q. Qarabağ abidələri//8.03.2022/ Virtual Qarabağ – Qarabağ abidələri // https://www/virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html 1/8

10. İsmayılov K., Balayev A. (2020), Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı: “Maarif” nəşriyyatı, 2020, 120 s.

11. Karabakh.Org (2020), “Erməni işğalı nəticəsində Azərbaycan mədəniyyətinə vurulan ziyanlar”//https://karabakh.org/conflict/aggression/damages-to-azerbaijani-culture as-a-result-of-armenian-occupation/ (Daxil olunub: 28 aprel 2021).

12. Namazova N. İşğaldan azad olunmuş Qarabağın memarlıq abidələrinin bərpa olunmasına doğru //Qarabağ Azərbaycandır. UNEC Ekspert №2(09) 2020, №1 (10). mart 2021, s.60-61.